**UOT 792.01**

***Afaq Ağayeva***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***AZ 1065 , Bakı, İnşaatçılar prospekti 39***
***E-mail***: info@admiu.edu.az

# AZƏRBAYCAN TEATRINDA ŞEKSPİR ƏSƏRLƏRİNİN SƏHNƏ TƏCƏSSÜMÜ

**Xülasə**: Uilyam Şekspirin yaradıcılığı beynəlxalq arenada intibah dövründən bugünə qədər öz aktuallığını qoruyub saxlamışdır. Onun yaradıcılığı dünyanın demək olarki bütün xalqlarının teatr mədəniyyətinə öz töhfəsini vermişdir. Şekspir dramaturgiyası  həm dünya həm də Azərbaycan teatr səhnəsində istər repertuar siyasəti baxımından istərsə də aktyor potensialı inkişafı tərəfindən hər zaman mühüm rol oynamışdır və bu əsərlər daim mövcud olacaq dünyəvi problemləri əks etdirdiyi üçün aktuallığının əbədi mövcudluğu şübhəsizdir.

**Açar sözlər**: Uilyam Şekspir, dramaturgiya, teatr, tamaşa, mədəniyyət.

Bildiyimiz kimi dünya şöhrətli Uilyam Şekspir 1564-cü ildə İngiltərənin əyalət şəhərlərindən birində, Stratfordda, yoxsul ailədə doğulmuşdur. Şekspir dünya ədəbiyyatına dahiyanə əsərlərin müəllifi, “Qlobus” teatrının aktyoru və cahanşümul dramaturq kimi daxil olmuşdur. Şekspir İntibah dövrünün nəhəng sənətkarlarından biridir. O, 37 səhnə əsərinin-komediyaların, tarixi dramların, faciələrin, habelə iki poema və çoxlu sonetlərin müəllifidir. Şekspir dünya ədəbiyyatına  həyat təcrübəsi zəngin, bədii təsiri son dərəcə qüvvətli olan pyeslər bəxş etmi,  dövrünün qabaqcıl və mütərəqqi ideyalarının müəllifinə çevrilmişdir.

Yaradıcılığında insan mövcudluğunun, varolmasının fundamental problemlərini təhlil edib, ədəbi dilə-yazıya gətirən Uilyam Şekspir dünya mədəniyyətində unikal, təkrarolunmaz yer sahibidir. XX əsr dünya ədəbiyyatının bir sıra tanınmış müəllifləri özünü Şekspirin sələfi hesab edirdilər. Uilyam Şekspir dini-fəlsəfi renessansın təsiredici qüvvələrindən biri idi. O, öz romanlarında zamanın ideoloji, sosioloji və mənəvi suallarına cavab axtaran, keçmiş, indiki, və gələcək zamanın müstəvisində insanı dərindən araşdırmağa çalışmışdı.

Şekspir əsərlərinin Azərbaycan səhnəsində tamaşaya qoyulmasının zəngin tarixi vardır. İlk dəfə 1903-cü ildə Azərbaycan aktyorları Şuşa şəhərində “Otello” faciəsini ilk dəfə ana dilində tamaşaya qoymuşlar. “Sonrakı illərdə həmin əsər

Bakıda və Azərbaycanın başqa şəhərlərində təkrar-təkrar göstərilmiş, çox kiçik fasilələrlə səhnəmizdə həmişə yaşamış, ideya dərinliyi, bədii-emosional keyfiyyəti ilə tamaşaçılarımızı təsirləndirmişdir" [M.Məmmədov. "Teatr düşüncələri", Bakı, 1977, s.78] .

Şekspirin əsərləri 1920-ci ildən sonra Azərbaycan səhnəsində daha geniş yer alır, tez-tez tamaşaya qoyulur. "Otello"dan sonra "Hamlet", "Maqbet", "Kral Lir", "Romeo və Cülyetta", "Antoni və Kleopatra", "Qış nağılı", "Fırtına" faciələri, "Şıltaq qızın yumşalması", "On ikinci gecə" və "İki veronalı" komediyaları nümayiş edilib. Bu əsərlərin hər biri dramaturqun zəngin yaradıcılığının nəticəsi olan yeni-yeni insan xarakterlərini, fərqli qəhrəman obrazlarını, həyat konfliktlərini əks etdirirdi.

Azərbaycan teatrı səhnəsində müxtəlif illərdə səhnə həyatı qazanan Şekspir əsərləri tamaşalarının rejissor yozumunun əsasında aktual ideyalar, aktual məzmun xüsusiyyətləri dayanırdı. Müasirliyin həm sənət həm də teatr üçün bir qanun olduğu artıq danılmaz bir faktdır. Müasirliyi başqa sözlə ifadə etsək, o həm də sənətin məzmunudur. Müasirlik konkret-tarixi bir zaman olmaqla bərabər, cəmiyyətin inkişafını əks etdirir və buna görə də dəyişir, mükəmməlləşir, yeni bir sıçrayış üçün zəmin olur. Müasirlik uğrunda aparılmış mübarizə uzun tarixə malikdir. Bugünkü müasirlik tələbinin kökü də bu tarixlə bağlıdır. Zaman ötdükcə müasirliyin məzmunu da xeyli zənginləşmiş və yenilənmişdir. Doqmatizmin və subyektivizmin zərərli təsiri və nəticələri aradan qaldırıldıqca, praktiki fəaliyyət elmə, dərin biliyə daha çox əsaslandıqca, ictimai şüur da dəyişir, yeniləşir. Odur ki, şüur fəaliyyəti olan sənət də dəyişilməyə bilmir və doğrudan da elmin sürətli inkişafı sənətkarla həyat arasında münasibəti dəyişmiş, nəticədə sənətin funksiyası da yeni keyfiyyət kəsb etmişdir.

Məşhur teatrşünas-alim Cəfər Cəfərovun təbirincə desək, "fikir və ehtiras, obraz və xarakter, zaman və məkan, milliyyət, irq və s. etibarilə Şekspirin yaradıcılığı, doğru deyirlər ki, "intəhasız" bir müxtəliflik mənzərəsidir" . Şekspir əsərlərinin milli səhnəmizdə uğur qazanması, azərbaycanlı seyricilərə bu dərəcədə nüfuz etməsi, milli rejissor və aktyorlarımızın səhnə uğuruna çevrilməsi hər bir zaman tənqid və teatr yazarları tərəfindən təəccüblü qəbul edilir. Bu təəcübün izahı çox sadədir. Yəni teatr nəzəriyyəsində tez-tez xatırlanan, hallandırılan həqiqətə görə, sənət həyatın bədii inikası kimi təqdim edilməli, bədii-estetik qavrayışı təmin etməlidir. Bu fikri dolayı yolla Şekspirin özü də söyləmiş, nəticədə dünya dillərində aforizmə çevrilmişdir: "Dünya səhnədir, insanlar isə aktyor". Şekspir özü də "Qlobus" teatrının aktyoru olmuşdu. Aktyor kimi cəmiyyətdə baş verən hadisələri bədii təxəyyülünün məhsulu kimi səhnəyə gətirmişdir.

Ümumilikdə isə Şekspir dramaturgiyasının nümunələri zaman arealına, bədii-estetik həllinə görə fərqlənsələrdə, ideya-məzmun xüsusiyyətlərinə görə öz dövrü üçün müasir idi və aktual mahiyyət kəsb edirdi.

Hələ 1950-ci illərin axırlarından milli teatrımızda hiss olunmağa başlayan yeni dalğa 1960-cı illərdə daha da sürətlənməyə başladı. 1970-ci illərdən isə Azərbaycan teatrının peşəkar sənət axtarışlarında yeni mərhələ başladı. Bu dövrdə

fəaliyyət göstərən rejissorlar yerli müəlliflərlə yanaşı əcnəbi dramaturqlarında əsərlərinə müraciət edirdilər. Səhnələşdirilən tamaşaların heç də hamısı uğurlu olmadı, lakin teatrın repertuarını zənginləşdirmək baxımından dəyərli idi, həm də azərbaycan tamaşaçısını başqa xalqların dramaturgiyası, həyat tərzi, adət-ənənəsi, mübarizəsi ilə tanış etmək, eləcədə ideya və məzmununu, ifadəli quruluşu, tamaşaçılara təsiri baxımından maraqlı idi.

Azərbaycan teatr tarixindən məlumdur ki, bir sıra xarici dramaturqlar kimi Şekspirin də Azərbaycan milli dram sənətinin təşəkkülünə və inkişafına, milli rejissuranın forma və üslub axtarışındakı prosesinə ciddi təsiri olmuşdur. Məhz milli rejissura daha geniş auditoriyaya müraciət etmək üçün, digər xalqların nə düşündüyünü, necə hiss etdiyini anlamaq üçün və heç şübhəsiz ki, dünya teatr prosesindən kənarda qalmamaq üçün Şekspir yaradıcılığına müraciət edirdilər.

Öncə də qeyd etdiyimiz kimi Azərbaycan milli rejissurasının ən çox müraciət etdiyi əcnəbi yazar məhz Şekspir olmuşdur. Bir sıra əcnəbi dramaturqlar kimi Şekspirin də Azərbaycan milli rejissurasının təşəkkülünə və inkişafına, peşəkarlıq səviyyəsinin artmasına ciddi təsiri olmuşdur. Dünya teatr arenasına qatılmaq, dünya xalqlarının teatr sənəti uğurlarına çatmaq, yeni bədii-estetik, yeni məzmunlu səhnə mədəniyyəti yaratmaq uğrunda çalışan milli rejissor sənətimiz başqa müəlliflərlə bərabər Şekspirə də müraciət edir. Azərbaycan Akademik Milli Dram Teatrının müxtəlif illərində repertuarına nəzər salsaq, görərik ki, əsas üstünlük əcnəbi dramaturqlar arasında məhz Şekspirə verilirdi.

Azərbaycan teatrının tanınmış rejissorları Ədil İsgəndərov, Mehdi Məmmədov, Ələsgər Şərifov, Zəfər Nemətov, Tofiq Kazımov, Vaqif İbrahimoğlu, Azər Paşa Nemətov və başqaları öz yaradıcılıqlarında Şekspir dramaturgiyasına müraciət etmişdilər. Gülrux Əlibəylinin qeyd etdiyi kimi "onları Şekspirin dahiliyi, onun insan xarakterlərinin dəhşətli ehtiraslarının kəskin toqquşmasında, insana xas bütün mənfi və müsbət, qaranlıq və işıqlı cəhətlərini açıb göstərməsi, insan psixologiyasının çoxcəhətliliyini və mürəkkəbliliyini sarsıdıcı dramatik formada göstərməsi cəlb edirdi". (1, s.76)

Şekspir dramaturgiyasının Azərbaycan səhnəsində yozumundan danışarkən Ələsgər Şərifovun ("Qış nağılı", 1955-ci il), Əşrəf Quliyevin ("Heç nədən hay-küy", 1979-ci il), Mərahim Fərzəlibəyovun ("Maqbet", 1981-ci il), Azər Paşa Nemətin ("Hamlet", 2002-ci il və "On ikinci gecə", 2011) tamaşaları Uilyam Şekspir dramaturgiyasının Azərbaycan səhnəsindəki uğurlu nümunələridir.

Bu tamaşaların rejissor yozumunun özülünü təşkil edən əsas ideyaları tezisləşdirsək, təxminən bu siyahı alınar:

- maarifçilik;
- cəmiyyət və insan;
- sevgi və ülvi hisslər;
- insanın daxili harmoniyası;
- ictimai və şəxsi mənafelər;
- humanizm;

Ümumiyyətlə isə Uilyam Şekspirin yaradıcılığı beynəlxalq arenada intibah dövründən bugünə qədər öz aktuallığını qoruyub saxlamışdır. Onun yaradıcılığı dünyanın demək olarki bütün xalqlarının teatr mədəniyyətinə öz töhfəsini vermişdir. Şekspir dramaturgiyası həm dünya həm də Azərbaycan teatr səhnəsində istər repertuar siyasəti baxımından istərsə də aktyor potensialı inkişafı tərəfindən hər zaman mühüm rol oynamışdır və bu əsərlər daim mövcud olacaq dünyəvi problemləri əks etdirdiyi üçün aktuallığının əbədi mövcudluğu şübhəsizdir.

## Ədəbiyyat:

1. Allahverdiyev M. Teatr tənqidi və müasirlik: İncəsənət Universitetinin tələbələri üçün dərs vəsaiti. B., Maarif, 1990
2. Azərbaycan teatr antologiyası 2-ci cild, Bakı -2013
3. Cəfərov C. Azərbaycan teatrı. Bakı, 1974, səh 239
4. Məmmədov M. "Teatr düşüncələri", Bakı, 1977, s.78
5. Rəhimli İ. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (3 cilddə) I cild (1873-1936). Bakı, ≪ *Təhsil* ≫, 2013.
6. Rəhimli İ. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (3 cilddə) II cild (1937-1969). Bakı, ≪ *Təhsil* ≫, 2013.
7. Rəhimli İ. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (3 cilddə) III cild (1970-2012). Bakı, ≪ *Təhsil* ≫, 2013.
8. http://web2.bilkent.edu.tr/turkedeb/wp-content/uploads/sites/5/2015/10/NESL%C4%B0HAN-DEM%C4%B0RKOL.pdf
9. http://sites.khas.edu.tr/tez/tamerbarisulger_izinli.pdf
10. http://kayzen.az/blog/dahil%C9%99r-maraql%C4%B1/3396/vilyam-%C5%9Fekspir.html

**Афаг Агаева**

**Драматургия Шекспира на сцене азербайджанского театра**

**Резюме**

Уильям Шекспир, проанализировав фундаментальные проблемы человеческой сущности, существования человека, перенеся это в плоскость литературного языка, стал обладателем уникального, неповторимого места в мировой культуре. Произведения Шекспира, в разные годы оживая на азербайджанской сцене, в интерпретациях режиссеров, основывались на актуальных идеях и тематических особенностях того времени. Образцы драматургии Шекспира в зависимости от временного ареала, художественно-эстетических решений, по своим идейно-тематическим особенностям были своевременны для того или иного периода, затрагивая его актуальную суть.

**Ключевые слова**: Шекспир, драматургия, театр, спектакль, культура

**Afaq Aqayeva**

**Dramaturgy of Shakespeare on the stage of the Azerbaijani theatre**

**Summary**

By analyzing fundamental problems of human existence and bringing them to literary language William Shakespear occupied his own unique place in world culture. In different years Shakespeare`s works on Azerbaijani stage in directors` interpretations were based on actual ideas and thematic peculiarities of that time.

**Keywords**: Shakespear, drama, theatre, spectacle, culture.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26.04.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 25.05. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Fəridə Cəlilova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**